**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akademik Z.M.BÜNYADOV adına ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**AYTƏN ŞAHİD QIZI ABBASOVA**

# CENGİZ DAĞCI YARADICILIĞINDA TARİXİ-SİYASİ PROSESLƏRİN TƏCƏSSÜMÜ

**5717.01 – Türk xalqları ədəbiyyatı**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Elman Hilal oğlu Quliyev**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər**: **Əsgər Adil oğlu Rəsulov**
filologiya üzrə elmlər doktoru, professor

**Azadə Şahbaz qızı Musayeva**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat**: AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsi

**Müdafiə "24" fevral 2016**-cı il saat "**12:00**"-da Azərbaycan Milli Elmlər Akademiyasının akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD 01.151 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 31, VII mərtəbə, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu

Dissertasiya ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat **"23" yanvar 2016**-ci il tarixində göndərilmişdir.

**FD 01.151**
**Dissertasiya Şurasının**
**Elmi katibi:**

**Z.Ə.Şıxəlibəyli**
**filologiya üzrə fəlsəfə doktoru**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Kommunist ideologiyasının hakim olduğu Sovetlər dövründə türk milli-mənəvi dəyərlərinin təbliği və öyrənilməsi bu ittifaqa daxil olan digər respublikalarda olduğu kimi, Azərbaycanda da sərt qadağa və məhdudiyyətlərlə üzləşmişdir. Bu dövrdə eyni tarixi kökə və ortaq mədəniyyətə malik olan türk xalqları nəinki öz tarixi-mənəvi dəyərlərindən uzaqlaşmış, həm də yad ideoloji təsirlər altında yaşamağa məruz qalmışlar. 1991-ci ildə Sovet imperiyasının dağılması ilə onun tərkibində olan digər respublikalarla yanaşı, Azərbaycanda da milli müstəqilliyin əldə edilməsi dövlətçiliyimizin qurulmasına, o cümlədən milli strategiyanın müəyyənləşməsinə gətirib çıxardı. Bununla da təxminən iki əsrlik müstəmləkə girdabında milli hüquqlardan məhrum edilmiş Azərbaycan xalqı keçən əsrin 90-cı illərindən başlayaraq itirilmiş dövlətçilik hüquqlarını bərpa etdi və yeni milli-ideoloji konsepsiya formalaşdırdı. Azərbaycanda formalaşan yeni ideoloji konsepsiya milli-mənəvi dəyərlərin öyrənilməsinə, türkçülük ideyalarının təbliğinə, onun tarixi-milli zəmində araşdırılmasına, ədəbi əlaqə prinsipləri daxilində türk xalqlarının ədəbiyyat və mədəniyyətinin öyrənilməsinə geniş imkanlar yaratdı. Bu gün geniş tədqiqatların aparılmasına imkanların yarandığı bir vaxtda türk xalqlarının ədəbiyyatı, dili, tarixi və mədəniyyətinin öyrənilməsi, eyni zamanda tarixi-siyasi proseslər fonunda milli-mənəvi dəyərlərin, ədəbi-bədii düşüncə sistemlərinin, xüsusi olaraq ayrı-ayrı sənətkarların bədii yaradıcılıqları daxilində totalitar rejim məngənəsində əzilən, sıxılan xalqların milli duyğu, sevgi, vətənpərvərlik, istiqlal arzularının və s. araşdırılması müasir elm qarşısında duran vacib və son dərəcə aktual məsələlərdən biridir.

XX əsr Krım-tatar ədəbiyyatının ən görkəmli simalarından biri olan Cengiz Dağcının (1919-2011) yaradıcılığında sadalanan problemlərin milli-mənəvi kontekstdə dəyərləndirilməsi əhəmiyyətli yer tutur. Onun yaradıcılığı Türkiyə ədəbiyyatşünaslığında müəyyən problemlər daxilində araşdırılsa da, digər türk ölkələrində, o cümlədən Azərbaycan ədəbiyyatşünaslığında heç bir əhatəli tədqiqat işi yazılmamışdır. Bir tərəfdən sənətkarın türkçülük ideyalarının zənginliyi ilə seçilən bədii yaradıcılıq irsinin mövcudluğu, digər tərəfdən də Azərbaycan ədəbiyyatşünaslığında Cengiz Dağcının bədii irsinin tədqiq olunmaması bu yaradıcılığın milli-mənəvi ideallar kontekstində araşdırılmasının aktuallığını şərtləndirir.

Milliyyətcə Krım türklərindən olan Cengiz Dağcı şəxsi həyatında müəyyən faciələrlə üzləşmiş, siyasi proseslərin gedişi nəticəsində əcdadlarının ruhunun sahib və sakin olduğu doğma vətənindən uzaqda yaşamaq məcburiyyətində qalmışdır. Taleyin hökmü ilə qədim türk yurdu olan Krımdan birdəfəlik uzaqlaşıb London sakini olmaq vətənpərvər yazıçının nə coşğun ruhuna, nə də əqidəsinə rahatlıq verməmişdir. Buna görə də Cengiz Dağcı bir yaradıcı şəxsiyyət olaraq yazdığı roman və hekayələrində vətən məhəbbəti, torpaq sevgisi, türk milli-mənəvi dəyərlərinə sədaqət və bağlılıq nümayiş etdirmişdir. Bütövlükdə Cengiz Dağcının yaradıcılığında milli-mənəvi ideallar yüksək bədii ümumiləşdirmə şəklində öz əksini tapa bilmişdir.

Cengiz Dağcı demək olar ki, bütün əsərlərində doğma türk yurdu Krımın ruslar tərəfindən işğalına etiraz etmiş, yaradıcılığında problemin ictimai-siyasi proseslər fonunda səciyyələndirilməsinə nail olmuşdur. Təbii olaraq bədii yaradıcılığına hakim olan millilik amalı məsələlərində yazıçı mücərrədliyə deyil, real tarixə və özünün şahid olduğu hadisələrə istinad etmişdir.

Cengiz Dağcı Krımda 21 il yaşamış (1919-1940), ömrünün 6 ilini cəbhələrdə və əsir düşərgələrində (1940-46), qalan hissəsini isə Londonda (1946-2011) keçirmişdir. Maraqlıdır ki, 65 il yaşadığı London həyatı yalnız üç əsərdə ("Mister Markus Burtonun iti", "Mister Con Marplenin son səfəri" və "Oy, Markus, oy!") əksini tapmış, digər romanları isə ("Qorxunc illər", "Yurdunu itirən adam", "Onlar da insan idi", "O torpaqlar bizim idi", "Badam budağına asılı körpələr", "Biz birlikdə keçdik bu yolu", "Mənim kimi biri", "Üşüyən küçə", "Dönüş", "Yoldaşlar", "Anama məktublar") Krım həyatının təsvirinə həsr olunmuşdur. Yazıçının Türkiyədə dərc olunan "Varlıq" jurnalında dərc edilmiş hekayələri ilə tanışlıq yaradıcılığındakı milliliyin daha dərin olduğunu təsdiqləyir.

Cengiz Dağcının əsərləri yazdığı ömür səhifələri fonunda "Hitler ve Stalin gibi dünyanın eli kanlı diktatörlerinin kurbanları"[1] olan Krım türklərinin tarixini əks etdirmək baxımından xarakterikdir. Gənc yazıçının həyatı II Dünya müharibəsinin başlaması ilə yeni bir istiqamətə yönəlmişdir. Maraqlıdır ki, bu dəhşətli müharibədə türklərin, xüsusilə Krım türklərinin yaşadıqları faciələr C.Dağcı yaradıcılığında olduğu qədər geniş şəkildə heç bir bədii sənətdə öz əksini tapmamışdır. Millətinin tarixini, keçmişini gənc nəsillərə çatdırmaq, onları milli-mənəvi dəyərlərə bağlılıq ruhunda yetişdirmək bir sənətkar kimi C.Dağcının qarşısında əsas vəzifə

[1] Bellek-İnsan-Eser: Cengiz Dağcı. İstanbul: Ötüken, 2011, s.36

idi. Tarixin müxtəlif dövrlərində milli-mənəvi təzyiqlərə məruz qalmış, dini, dili, azadlığı əlindən alınmağa çalışılan, doğma torpaqlarından didərgin olunan, taleyinə sürgünlər yazılan Krım türklərinin faciəli tale və tarixinin bədii ədəbiyyatda əksinin araşdırılması müəyyən məqamlarda ortaq taleyi yaşamış xalqımızın hər bir nümayəndəsi üçün tarixi baxımdan əhəmiyyət kəsb edir. Bu baxımdan Cengiz Dağcının yaradıcılığı ilə yaxından tanışlıq, fikrimizcə, olduqca vacib və aktualdır. Görkəmli türk ədəbiyyatşünası İsa Kocakaplanın Cengiz Dağcı haqqında fikirləri onun türk xalqları ədəbiyyatındakı əhəmiyyətli yerini göstərmək üçün olduqca qiymətlidir: “Günümüzde başta ermeni lobileri olmak üzere, çeşitli lobilerin Türkiye’yi zor duruma düşürme çabaları, büyük ölçüde, bizim geçen yüz yıldakı acılarımızın edebiyata ve sinemaya yansımayışındandır. Acılarımız, ölenlerle gömüldü gitti. Onların anaları, babaları, kardeşleri, sevgilileri... Sadece birkaç türkü, birkaç ağıt yaptılar. Bu acıyı sadece onlar duyuruyor şimdi gönüllere... Ama bu çekilenleri asıl duyuracak olanlar; aydınlar, edebiyatçılar, şairler, tiyatrocular, sinemacılar ve b. yetişmiş ve evrensel dille konuşabilecek olan insanlardır... Bunu bizim aydınımız ve edebiyatçımız yapamadı... Bir kişi hariç... O kişi Cengiz Dağcı’dır.”[1] Bu baxımdan yazıçının əsərləri Krım türklərinin XX əsrdə yaşadıqları iztirab və faciələrin ən təsirli bədii ifadəsidir. Bir faktı da qeyd edək ki, yazıçı romanlarında yalnız Krım türklərinin başına gələnləri təsvir etməklə kifayətlənməmiş, digər türk xalqlarının faciələrini də müəyyən obrazların timsalında dilə gətirmişdir. Milliyətcə azərbaycanlı, qırğız, qazax, özbək olan bu obrazlar II Dünya müharibəsinin bütün türk xalqlarının taleyində silinməz əzablar, unudulmaz ağrı-acılar buraxdığını bir daha təsdiqləyir. Bu cəhət tədqiqatın aktuallığını həm də ümumtürk kontekstində şərtləndirir.

Yazıçı ürək yanğısı ilə qələmə aldığı əsərləri vasitəsilə tarix boyunca siyasi oyunların qurbanına çevrilmiş, torpaqlarından çox uzaqlara sürgün edilən, yer üzündən silinməyə çalışılan bir millətin boğulan səsini bütün dünyaya çatdırmağa nail olmuşdur. Ancaq bütün bu əsərlərdə o, heç zaman yaşanan faciələrin günahını bir millətin boynuna qoymağa çalışmamış, günahkar kimi rus xalqını yox, totalitar rejimi və imperialist siyasəti qamçılamışdır.

Yazıçının heç vaxt Türkiyədə olmamasına baxmayaraq əsərlərini Türkiyə türkcəsi ilə yazması maraqlı bir faktdır. “Türkcə mənim anamın danışdığı dildir” deyən Cengiz Dağcının bədii əsərlərini Krım tatarcasında

---

[1] Kocakaplan İ. Kırım’ın ebedi sesi Cengiz Dağcı. İstanbul: Türk edebiyatı vakfı yayınları, 2012, s.221

deyil, Türkiyə türkcəsində yazması onların ümumtürk və beynəlxalq miqyasda yayılmasına geniş imkanlar yaratmışdır. Bu əsərlər Yaşar Nabi Nayırın redaktorluğu ilə Türkiyədə dəfələrlə nəşr olunmuşdur. Əsərlərinin bu dildə çap olunması bir sənətkar olaraq onun türk dünyasında tanınmasında böyük rol oynamışdır. Bu baxımdan Cengiz Dağcının bütün türk dünyasında tanınan çoxcəhətli və zəngin bədii yaradıcılığını araşdırıb, tədqiq edib dəyərləndirmək xüsusi elmi aktuallıq daşıyır.

**Tədqiqatın obyekti və predmeti**. Cengiz Dağcının ədəbi fəaliyyəti, yazdığı şeir, hekayə və romanları tədqiqat işinin obyektini təşkil edir. Dissertasiyada yazıçının bədii yaradıcılığı ilə yanaşı dörd cildlik "Yansılar" və "Mən və içimdəki mən (Yansılardan qalanlar)" adlı kitabda topladığı xatirələri, "Varlıq" jurnalında dərc etdirdiyi hekayə və məqalələri, müsahibələri də tədqiqat obyektinə çevrilmişdir. Yazıçının London həyatından bəhs edən "Mister Markus Burtonun iti", "Mister Con Marplenin son səfəri" və "Oy, Markus, oy!" adlı romanları tədqiqatımızın mövzusu ilə birbaşa bağlı olmadığından onları təhlilə cəlb etməyi lazım bilmədik.

Yazıçının zəngin bədii irsinin ədəbi mühit, tarixi-siyasi proseslər, milli-mənəvi ideallar, türk milli özünüdərk və özünütəsdiq kontekstində araşdırılması tədqiqatın predmetini təşkil edir.

**Mövzunun tədqiqi tarixi**. Azərbaycan ədəbiyyatşünaslığında qüdrətli yazıçı Cengiz Dağcının yaradıcılığı ilə bağlı sistemli bir tədqiqat işi yazılmamış, şeir, hekayə və romanlarının heç biri dilimizə tərcümə olunaraq çap edilməmişdir.

Respublikamızda türk xalqları ədəbiyyatının müxtəlif dövrləri və problemlərinə, ayrı-ayrı ədəbi simaların yaradıcılığının tədqiqinə həsr edilmiş əsərlərdə, monoqrafiyalarda, dərc olunmuş elmi-tənqidi məqalələrdə tədqiqat obyektimiz olan mövzuya birbaşa toxunulmasa da, maraqlı fikir və mülahizələr irəli sürülmüş, türk xalqları ədəbiyyatının aktual problemləri geniş şəkildə araşdırılmışdır. Tanınmış türkoloqlardan Aydın Abiyevin[1], Xalidə Quliyeva-Qafqazlının[2], Elman Quliyevin[3], Əhməd Əhmədovun[4], Aqşin Babayevin[5], Əsgər Rəsulovun[6], Rəşid

---

[1] Aydın A.A. Türkiyə ədəbiyyatı tarixi. I c., Bakı: Tural, 2005, 456 s.
[2] Quliyeva-Qafqazlı X. Qaracaoğlan. Bakı: Elm, 1985, 116 s.
[3] Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı: APOCTOROFF, 2014, 612 s.
[4] Əhmədov Ə.C. Rəşad Nurinin romanları. Bakı: Azərnəşr, 1965, 172 s.
[5] Babayev A. Nazim Hikmət. Bakı: İşıq, 1978, 88 s.
[6] Rəsulov Ə. Türk sənədli-bədii nəsri. Bakı: Elm, 2004, 428 s.

Təhməzoğlunun[1], Sədaqət Qasımlının[2], Səriyyə Gündoğdunun[3], Maarifə Hacıyevanın[4] və s. əsərlərində tədqiqat obyektimiz konkret elmi hədəf olmasa da, dissertasiya işimizin yazılışı prosesində məhsuldar şəkildə faydalandığımız elmi-tədqiqat işlərindəndir.

Əli Şamil bütün türk dünyasını kədərləndirən xəbərə – Cengiz Dağcının ölüm xəbərinə etinasız qalmamış, dövri mətbuatda yazıçı ilə bağlı bir neçə məqalə ("Gözlənilən ölümün acısı və ya Çingiz Dağcı dünyadan köçdü"[5]; "Görkəmli krım-tatar ədibi Cengiz Dağcı vətən torpağına tapşırıldı"[6]; "Cengiz Dağcı – Azerbaycan ilişkisi bağlamında "Korkunç yıllar" romanındaki Azerbaycanlı imajı"[7]) dərc etdirmişdir.

Yazıçının həyatı və yaradıcılığı ilə bağlı Türkiyədə aparılmış ilk geniş tədqiqat işi İbrahim Şahin tərəfindən yazılmış "Cengiz Dağcı'nın hayatı ve eserleri" (1992) adlı doktorluq dissertasiyasıdır. Bu tədqiqat işi 1996-cı ildə ayrıca kitab şəklində çap olunmuşdur[8]. Görkəmli türk ədəbiyyatşünasları İsa Kocakaplanın[9], A.Karanın[10] monoqrafiyalarında, Salim Çonoğlu[11], Mustafa Çetin[12], İnci Enginün[1], Bilge Ercilasun[2], Hüseyin

---

[1] Təhməzoğlu R. Nazim Hikmətin yaradıcılığında Şərq. Bakı: 2008, 152 s.

[2] Qasımlı S. Haldun Tanerin bədii nəsri. Bakı: Bilik "İrşad" Mərkəzi, 1994, 124 s.

[3] Gündoğdu S. Mehmed Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü. Bakı: R.M.Kompani, 2012, 228 s.

[4] Hacıyeva M. Ədəbi dəyərlər. Bakı: İrfan, 2013, 200 s.

[5] Şamil Ə. Gözlənilən ölümün acısı və ya Çingiz Dağcı dünyadan köçdü. "525-ci qəzet", 28 sentyabr 2011, sayı 176 (3492), s.7

[6] Şamil Ə. Görkəmli kırım tatar ədibi Cengiz Dağcı vətən torpağına tapşırıldı. "525-ci qəzet", 4 okyabr 2011, sayı 180 (3496), s.7

[7] Hüseynoğlu A.Ş. Cengiz Dağcı – Azerbaycan ilişkisi bağlamında "Korkunç Yıllar" romanındaki Azerbaycanlı imajı // Kardeş kalemler dergisi, nisan 2014, №88, s.54-60

[8] Şahin İ. Cengiz Dağcının Hayatı ve Eserleri. Ankara, Kültür Bakanlığı Yayınları, 1996, 604 s.

[9] Kocakaplan İ. Cengiz Dağcı'nın dört romanı. İstanbul: MEB yayınları, 1992, 172 s.; Kocakaplan İ. Kırım'dan Londra'ya Cengiz Dağcı. İstanbul: Damla yayınevi, 1998, 288 s.; Kocakaplan İ. Kırım'ın ebedi sesi Cengiz Dağcı. İstanbul: Türk edebiyatı vakfı yayınları, 2012, 224 s.

[10] Kara A. Gamalı haç ile kızıl yıldız arasında bir yazar Cengiz Dağcı. İstanbul: İQ yayıncılık, 2012, 134 s.

[11] Çonoğlu S. Vatanını yüreğinde taşıyan yazar: Cengiz Dağcı // Kardeş kalemler dergisi, kasım 2011, №59, s.30-34; Çonoğlu S. Cengiz Dağcı'nın romanlarında ata mirası toprağa bağlılık // Karadeniz dergisi, 07 haziran, 2012, №13, s.11-25; Çonoğlu S. Cengiz Dağcı'nın Şiirleri Üzerine Bir Değerlendirme // Kardeş kalemler dergisi, nisan 2014, №88, s.108-121

[12] Çetin M. Kırım Ana'ya mektuplar // Türk yurdu dergisi, cilt 9, №25, şubat 1989, s.46-47; Çetin M. Cengiz Dağcı'ya dair // Kardeş kalemler dergisi, kasım 2011, s.53-55; Çetin M. Cengiz Dağcı Kaynakçası ve Kaynakçaya Dair Sorunlar // Kardeş kalemler dergisi, nisan 2014, №88, s.141-147

Hüseyin Albayrak[3], Zara Bekirova[4], Mustafa Köker[5], Hüseyin Özbay[6], Yakup Ömeroğlu[7] və başqa tədqiqatçıların yazdıqları məqalələrdə Cengiz Dağcının yaradıcılığının müxtəlif cəhətləri təhlilə cəlb edilmişdir.

Avrasya Yazarlar Birliyi tərəfindən dərc olunan "Qardaş qələmlər" aylıq ədəbiyyat jurnalı 2011-ci ildə 59 nömrəli[8], 2014-cü il 88 nömrəli xüsusi buraxılışlarını[9] Cengiz Dağcıya həsr etmiş, hər iki sayda bir çox görkəmli tədqiqatçıların yazıçının həyat və yaradıcılığının müxtəlif cəhətlərinə həsr olunmuş dəyərli məqalələr toplanmışdır.

"Emel Krım Dərnəyi"nin idarə heyətinin sədri, Krım Tatar Milli Məclisinin Türkiyə təmsilçisi, TRT televiziyasının rejissoru Zafer Karatay Cengiz Dağcı ilə şəxsən görüşmüş, Londonda və Krımda çəkilişlər aparmış, "Cengiz Dağcı belgeseli" adlı sənədli film hazırlamış[10] və bu sənədli film yazıçının ölümündən bir az əvvəl – 10 aprel 2011-ci ildə yayınlanmışdır.

Göründüyü kimi, C.Dağcı yaradıcılığı Türkiyə ədəbiyyatşünaslığında müəyyən problemlər daxilində araşdırma mövzusu olsa da, onun sənəti tarixi-siyasi proseslərin mənsub olduğu millətin taleyinə təsiri fonunda öyrənilməmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi Krım-tatar ədəbiyyatının XX əsrdə yetişdirdiyi ən görkəmli simalardan biri olan Cengiz Dağcının həyatı, dövrü, mühiti, ədəbi-bədii fəaliyyət mərhələlərini araşdırmaq, onun roman və hekayələrində türk milli-mənəvi ideallarının təzahürünü üzə çıxarmaqdan ibarətdir. Qarşıya qoyulan məqsədin yerinə yetirilməsi üçün dissertasiya işində aşağıdakı elmi-nəzəri vəzifələrin həlli nəzərdə tutulmuşdur:

---

1 Enginün İ. Cengiz Dağcı // Türk dili dergisi, mart 1995, №519, s.231
2 Ercilasun B. Savaş romanı ve Cengiz Dağcı // Kardeş kalemler dergisi, ekim 2012, №70, s.52-58
3 Albayrak H. Vatan hasreti ile yanan şanlı türk Cengiz Dağcı // Kardeş kalemler dergisi, kasım 2011, №59, s.53-55; Albayrak H. Kırım türkleri'nin yiğit yüreği Cengiz Dağcı // Kardeş kalemler dergisi, nisan 2014, №88, s.76-78
4 Bekirova Z. Cengiz Dağcı ile sohbet // Kardeş kalemler dergisi, kasım 2011, №59, s.28-29
5 Köker M. Yurdunu kaybeden adam // Kardeş kalemler dergisi, nisan 2014, №88, s.30-38
6 Özbay H. Gökkubemizde iki yıldız: İki Cengiz // Kardeş kalemler dergisi, kasım 2011, №59, s.16-21; Özbay H. Dağcı'nın varoluş mücadelesi // Kardeş kalemler dergisi, nisan 2014, №88, s.27-29
7 Ömeroğlu Y. Dağcı ve Kırım // Kardeş kalemler dergisi, nisan 2014, №88, s.8-10
8 Kardeş kalemler aylık edebiyat dergisi. Cengiz Dağcı özel sayısı, №59, kasım 2011, 200 s.
9 Kardeş kalemler aylık edebiyat dergisi. Cengiz Dağcı özel sayısı, №88, nisan 2014, 157 s.
10 http://www.trt.net.tr/televizyon/detay.aspx?pid=23704

– XX əsr Krım-tatar ədəbiyyatının inkişafında Cengiz Dağcının rolunu və mövqeyini müəyyənləşdirmək;

– Cengiz Dağcının həyat və yaradıcılığını əhatəli şəkildə araşdırmaq, yaradıcılığının spesifik keyfiyyətlərini üzə çıxarmaq;

– yazıçının həyatını, yaşadığı ictimai-siyasi dövrü, onu bir sənətkar kimi formalaşdıran ədəbi mühiti, dünyagörüşünün formalaşmasına ictimai-siyasi proseslərin təsiri məsələlərini dərindən araşdırmaq;

– Cengiz Dağcının yaradıcılığında əhəmiyyətli yer tutan, türk milli-mənəvi ideallarının əks olunduğu romanları mövzu və ideya baxımından tədqiqata cəlb etmək, bu əsərlərdə tarixi-siyasi proseslərin milli-mənəvi ideallar kontekstində təcəssümünü ortaya çıxarmaq;

– yazıçının əsərlərində türkçülük, millətçilik və azadlıq ideyalarını ortaya çıxarmaq;

– yazıçının əsərlərində milli özünüdərk məsələlərinin təhlilinə xüsusi yer vermək;

– sənətkarın romanlarının təhlili zamanı Krım türklərinin faciəli talelərinin bədii əksini təhlil predmetinə çevirmək;

– yazıçının hekayələrində vətən, yurd, insan sevgisi, milli duyğuların tərənnümü məsələlərini araşdırmaq.

**Tədqiqatın metodoloji və nəzəri əsasları.** Tədqiqatın metodoloji və nəzəri əsaslarını filologiya elmi sahəsindəki milli və ümumbəşəri dəyərlərə əsaslanmaqla, ədəbi-bədii materialın tarixi-müqayisəli araşdırılması, müasir ədəbiyyatşünaslıqda əldə olunmuş nailiyyətlər təşkil edir. Tədqiqat zamanı sosial-tarixi prinsipə ardıcıl riayət edilmişdir. Dissertasiyanın yazılmasında müasir ədəbiyyatşünaslığın elmi-nəzəri müddəaları əsas götürülmüş, Türkiyə və Azərbaycan ədəbiyyatşünaslığının, türkologiya elminin əldə etdiyi təcrübə və nəticələrindən istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyada Krım-tatar ədəbiyyatının XX əsrdə yetişdirdiyi ən görkəmli nümayəndələrdən olan Cengiz Dağcının həyat və yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında sistemli şəkildə ilk dəfə araşdırılır. Dissertasiyada ilk dəfə olaraq Cengiz Dağcının həyatı, dövrü, ədəbi fəaliyyət mərhələləri hərtərəfli tədqiq olunmuş, sənətkarın həyatı, yaradıcılığı ədəbi şəxsiyyət və mühit kontekstində, mühitin yazıçının dünyagörüşü və yaradıcılığına təsiri fonunda öyrənilmişdir. Tədqiqat işində sənətkarın roman və hekayələri yazıçının türk milli-mənəvi idealları baxımından məsələlərə müdaxiləsi istiqamətində tədqiq və təhlil obyektinə çevrilmiş, sənətkarın romanlarının

təhlili zamanı Krım türklərinin faciəli talelərinin bədii əksi məsələləri üzə çıxarılmışdır.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyanın başlıca müddəa və nəticələrindən türk xalqları ədəbiyyatı problemləri və Cengiz Dağcı yaradıcılığı ilə məşğul olan mütəxəssislər, o cümlədən ali məktəb tələbələri faydalana bilərlər. Təcrübi baxımdan isə tədqiqat işindən ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün dərslik və dərs vəsaitlərinin, monoqrafiyaların yazılması, tədris proqramlarının tərtibi və seçmə kurs mühazirələrinin hazırlanmasında faydalanmaq mümkündür.

**İşin aprobasiyası.** Dissertasiya işinin mövzusu 13.03.2013-cü il tarixində AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Şərqşünaslıq üzrə Problem Şurasında (protokol №1) təsdiq edilmişdir. Dissertasiya işi AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsində yerinə yetirilmişdir. Tədqiqat işinin əsas məzmunu, nəzəri müddəa və nəticələri doktorantın mövzu ilə əlaqədar Respublikamızda və xaricdə çap olunan elmi məcmuələrdə nəşr etdirdiyi elmi məqalələrində, beynəlxalq elmi konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, hər biri müvafiq yarımfəsillərə bölünmüş üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun elmi aktuallığı əsaslandırılır, məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqat tarixinə nəzər salınır, elmi yeniliyi, metodoloji əsasları, nəzəri və təcrübi əhəmiyyəti, işin aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Cengiz Dağcının həyatı, dövrü, mühiti. Şeir və hekayə yaradıcılığı"** adlanır. Bu fəslin "**Cengiz Dağcının həyatı, mühit və şəxsiyyət amili, ədəbi-bədii dünyagörüşünün formalaşması**" adlanan birinci yarımfəslində yazıçının həyatı, dövrü, mühiti, ədəbi-bədii fəaliyyət mərhələləri, mühit amillərinin yazıçının yaradıcılığına təsiri məsələləri, yaşadığı ictimai-siyasi dövrü, onu bir sənətkar kimi formalaşdıran ədəbi mühit, dünyagörüşünün formalaşmasına ictimai-siyasi proseslərin təsiri məsələləri araşdırılır.

Bu yarımfəsildə göstərilir ki, müxtəlif siyasi oyunlar nəticəsində başı müsibətlər çəkmiş Krım türklərinin tarix boyunca çəkdikləri müsibətləri, faciəli talelərini, azadlıq uğrunda mübarizələrini, istiqlal arzularını və s. bədii əsərlərinin əsas mövzusuna çevirmiş ən qüdrətli yazıçılardan biri Cengiz Dağcı olmuşdur. Cengiz Dağcı 1919-cu ilin 9 martında Krımın cənubunda yerləşən Qurzuf qəsəbəsində dünyaya göz açmışdır. Yazıçının uşaqlığı və gəncliyi Krım türkləri üçün çətinliklərlə dolu olan illərə təsadüf edirdi. Təbii ki, bütün bu çətinliklər Cengiz Dağcının ailəsindən də yan keçmir. 1931-ci ildə Cengiz Dağcının atası Əmir Hüseyin Dağcı da heç bir səbəb göstərilmədən həbs olunur. Həbs olunanların hara aparılması ilə bağlı məlumat verilməməsi çətin şəraitdə yaşayan ailə üzvlərinin nigarançılığını daha da artırır. Ailə başçısının Ağməsciddə həbs olunduğunu öyrənən ailə üzvləri üçün çətin günlər başlayır. Bu günlərdə kəndlərə soxulan rus əsgərləri ailə başçıları həbs olunmuş evlərə rahatlıqla girir, kənd camaatına məxsus ev əşyalarını mənimsəməkdən çəkinmirdilər. Bu illərdə Cengizin əmisi Osman Dağcının bütün əmlakı əlindən alınmış və ürək xəstəliyindən əziyyət çəkən Osman Dağcı çox çəkmədən vəfat etmişdir. Digər əmisi Mustafa Dağcı bütün ailəsi ilə birlikdə Qızıldaşdan sürgün edilmiş, evinin qapısına "müsadirə" sözü yazılaraq hər şeyi əlindən alınmışdı. Ailənin bütün maddi çətinliklərinə və qayğılarına baxmayaraq, 1936-cı ildə Cengizin atası da onu On ikinci Nümunə məktəbinə yazdırır. Bütün dərslərə maraq göstərən Cengiz xüsusilə ədəbiyyat dərslərini sevir, dünya klassiklərinin əsərlərini böyük maraqla mütaliə edir, onların təsiri ilə şeirlər yazırdı.

1938-ci ildə orta məktəbi bitirdikdən sonra Cengiz Krım Pedaqoji İnstitutunun tarix fakültəsinə qəbul olur. Cengiz Dağcıdakı ali təhsil almaq istəyi onu yetişdirən mühitdən irəli gəlirdi. Ata tərəfindən qohumlarından Zəminə Dağcı ilə sıx ünsiyyəti, onun zəngin kitabxanası ilə tanışlığı, sevimli əmisi Seyid Ömər Dağcı ilə söhbətləri, türk ədəbiyyatı ilə yaxından tanış olan əmisinin təhsil müddətində Türkiyədə və Avropada aldığı təəssüratlarını qardaşlarının övladları ilə bölüşməsi onda təhsilə olan marağı daha da artırmışdı. Tələbəlik illərində ədəbi yaradıcılıqla ciddi şəkildə məşğul olan Cengiz Dağcı şeirlərini Krım-tatar Yazıçılar Birliyinin rəsmi orqanı olan "Ədəbiyyat məcmuəsi" qəzetində dərc etdirir. Məhsuldar yaradıcılıqla məşğul olduğu bir vaxtda – 1940-cı ilin 22 dekabrında çağırış

vərəqəsi ilə gənc Cengiz cəbhəyə çağırılır. İlk günlərdə hökm sürən sakitlik iyun-iyul aylarında alman hərbi qüvvələrinin cənub-qərb və qərb istiqamətlərində irəliləməsi ilə pozulur. Gərgin döyüşlərdə daha zəif texniki təchizata malik olan Sovet qoşunları böyük itkilər verir. Buq çayının sahillərinin havadan bombalanmasının ertəsi günü – 9 avqust 1941-ci ildə Cengiz Dağcı alman hərbi qüvvələrinə əsir düşür.

Tikanlı məftillərlə əhatələnmiş əsir düşərgələrində ölənlərin dəyərsiz əşyalar kimi xəndəklərə necə atıldığını, gündüzlərin gecələrdən fərqlənmədiyi, ölümün hər an nəfəs qədər yaxın olduğu, bir tikə çörək, çəkilib atılmış bir siqaret kötüyü əldə etmək üçün əsirlərin bir-birini az qala öldürdükləri o günlərdə aclıqdan, soyuqdan az qala şüurunu belə itirəcəyini hiss etdiyi anları ürək ağrısı ilə xatırlayan yazıçı bütün bunları yaradıcılığı boyunca bu və ya digər şəkildə dilə gətirir.

Əsir həyatının bir hissəsini alman hərbi qüvvələrinin yaratdığı Türküstan legionunda keçirən Cengiz Dağcı bu legionun fəaliyyətini Krımın azadlığı üçün önəmli sayır. Cəbhədə almanların itkilər verdiyi və geri çəkilməli olduqları müddətdə artıq Türkistan legionunun fəaliyyətinə ehtiyac qalmır. Krıma gedən yolun açılacağı təqdirdə doğma yurduna dönmək ümidi ilə yaşadığı günlərdə Regina adlı polyak bir xanımla tanış olur. 1945-ci ilin 18 iyununda Regina Kleszko ilə Romada hər biri etiqad etdikləri dində qalmaq şərti ilə kəbin kəsdirirlər. Həmin ilin 24 oktyabrında qızları Arzu-Ursula dünyaya gəlir. Bir ilə yaxın burada qaldıqdan sonra 1946-cı ilin oktyabrında Cengiz Dağcı ailəsi ilə birlikdə Şotlandiyaya, oradan da Londona gəlir. Ömrünün sonuna kimi Londonda yaşayan yazıçı bu illər ərzində çox çətinliklər yaşasa da, heç zaman ümidsizliyə qapılmamış, qələmi ilə həyata bağlanmışdır. Gün boyunca ağır işlərdə çalışan Cengiz Dağcı yuxusuz gecələr keçirmiş, qələmini yerə qoymadan ürəyindəkiləri kağıza köçürmüşdü.

Yarımfəsildə Cengiz Dağcının türk dünyasındakı şöhrəti və aldığı çoxsaylı mükafatlar barəsində məlumatlara da yer ayrılmışdır. Qeyd olunur ki, yazıçının əsərləri Türkiyədə geniş oxucu kütləsinin rəğbətini qazanmış, “Anama məktublar” romanı Türkiyə Yazıçılar Birliyi tərəfindən 1988-ci ildə ilin ən yaxşı romanı mükafatına layiq görülmüşdür. Yazıçı 1993-cü ildə Türkiyədə İLESAM (Türkiyə elm və ədəbi əsər sahibləri peşə birliği) tərəfindən “Türk dünyası ədəbiyyatına xidmət” mükafatına, 1997-ci ildə

Türkiyə Yazıçılar Birliyinin "İlin mədəniyyət adamı" mükafatına, 2001-ci ildə KİBATEK-in (Kipr-Balkanlar-Avrasiya Türk ədəbiyyatları qurumu) "Beynəlxalq türk mədəniyyətinə xidmət" mükafatına, 2004-cü ildə Türk Ocaqları və ESKADER-in (Ədəbiyyat, sənət və mədəniyyət araşdırmaları dərnəyi) yüksək xidmət mükafatlarına layiq görülmüşdür. 2000-ci ildə İstanbul Türk Mədəniyyətini Qoruma Dərnəyi tərəfindən "Türk dili" fəxri diplomu ilə təltif edilmişdir. 1999-cu ildə Türkiyənin Mədəniyyət naziri İstemihan Talay, 2005-ci ildə Mədəniyyət naziri Atilla Koç yazıçını Türkiyəyə dəvət etmişlər. 2009-cu ildə Türkiyə Cümhuriyyəti Baş nazirliyi də yazıçını Türk dünyasına əvəzsiz xidmətlərinə görə təşəkkür mükafatına layiq görmüşdür.

Ömrünün son günlərini xəstə yatağında keçirən yazıçı 22 sentyabr 2011-ci ildə 92 yaşında Londonda vəfat etmişdir. Sağlığında doğma torpağına qovuşmaq qismət olmayan yazıçının cənazəsi nəhayət ki, doğma torpağına qovuşdu. Türkiyə Cümhuriyyətinin o zamankı Xarici İşlər Naziri Ahmet Davutoğlunun ciddi səyləri, Ukrayna dövlətinin rəsmiləri ilə apardığı danışıqlar nəticəsində yazıçının cənazəsi Krıma – Ağməscidin 100 km uzaqlığında olan Qızıldaş kəndinə aparılmış, orada torpağa tapşırılmışdır. Yazıçının canı qədər sevdiyi doğma torpağına qovuşduğu dəfn mərasimində Türkiyə Cümhuriyyətinin bir sıra görkəmli ictimai xadim və mətbuat işçilərinin də tərkibində olduğu böyük bir heyət iştirak etmişdir.

Beləliklə, yazıçının son vəsiyyəti – sağ ikən o torpaqlara qovuşa bilməyən vücudunun öldükdən sonra doğma torpağına qovuşmaq istəyi reallaşdı. İsa Kocakaplanın "Kırım'ın ebedi sesi"[1] adlandırdığı qüdrətli yazıçı Cengiz Dağcı 1940-ci ildə ayrıldığı, bir daha dönə bilmədiyi, ömrü boyu həsrəti ilə yaşadığı doğma torpağına – istiqlalını arzulayan, lakin istiqlalına qovuşmayan Krıma yenidən qovuşdu.

Dissertasiyanın I fəslinin ikinci yarımfəsli **"Yazıçının şeir və hekayələrində milli duyğular, insan sevgisi, vətənpərvərlik ideyalarının təzahürü"** adlanır. Burada Cengiz Dağcının yaradıcılıq mərhələləri səciyyələndirilmiş, şeir və hekayələrində vətən, yurd, insan sevgisi, milli duyğuların tərənnümü məsələləri üzə çıxarılmağa çalışılmışdır. Məlum olduğu kimi, qiymətli nəsr nümunələri ilə yanaşı, Cengiz Dağcının Krım

[1] Kocakaplan İ. Kırım'ın ebedi sesi Cengiz Dağcı. İstanbul: Türk edebiyatı vakfı yayınları, 2012, 224 s.

türkcəsi ilə yazılmış bir neçə şeiri də mövcuddur. Bu şeirlərin bir çoxu II Dünya müharibəsindən əvvəl yazıldığı, o dövrdə çap olunan jurnallarda dərc olunduğu üçün hamısını əldə etmək mümkün deyil. Yazıçı özü də xatirələrində bu şeirlərdən bir çoxunun əlində olmadığını, bəzilərinin dərc olunmaq üçün göndərdiyi redaksiyalarda qaldığını təəssüf hissi ilə qeyd edir. "Bu şiirler aç ve susamış ruhumu tatmin edecek şiirler değildi"[1] deyə xatırlayan yazıçı ancaq bu şeirlərin sonrakı ədəbi fəaliyyəti üçün təməl təşkil etdiyini də qeyd edir.

Bir çox dünya klassiklərinin, o cümlədən Yesenin, Mayakovski, Puşkin və Pasternakın şeirlərini böyük maraqla oxuyan Cengiz Dağcı 1936-cı ildə "Qış" adlı ilk şeirini yazır və bu şeir məktəbin divar qəzetində dərc olunur. Tələbəlik illərində ədəbi yaradıcılıqla ciddi şəkildə məşğul olan Cengiz Dağcının şeirləri Krım-tatar Yazıçılar Birliyinin rəsmi mətbu orqanı olan "Ədəbiyyat məcmuəsi"ndə dərc olunmağa başlayır. Krım-tatar türkcəsi ilə yazılmış "Bahar səhəri", "Gəldi bahar", "Təbiətə sevgim", "Axşam olsa", "Mənim ağam", "Quşların nəğməsi", "Kənd axşamı", "Gül", "Sevdiyim Yalta", "Duman" şeirləri bu qəbildəndir. Xoşbəxt günlərin gələcəyinə inamın nəticəsi kimi ortaya çıxan bahar obrazı, azadlığı simvolizə edən quş obrazı bu şeirlərdə daha çox diqqət çəkir. Dağcının bu illərdə yazdığı bəzi şeirləri Sovet ideologiyasının təsiri altında yazılsa da, bu şeirlər onun doğulub-böyüdüyü torpaqların vəsfinə həsr etdiyi şeirlərlə müqayisədə azlıq təşkil edir.

Cengiz Dağcının şeirlərində yaşadığı ərazinin hər qarışı haqqında məlumat almaq olur, bütün şeirlərində Krımın dünəni, bu günü, tarixi keçmişi, təbiəti, insanlarının yaşayış tərzi təsvir olunur. Ürəkdən bağlı olduğu bu torpaqların əsrarəngiz gözəllikləri şair qəlbli gənci məftun edir. "Kənd" (1939) şeirində də şairin Krımın gözəlliklərinə heyranlığı öz əksini tapır. II Dünya müharibəsi illərində yazdığı "Ulduz" (1944) şeirində isə qəmli şair tənha gecələrdə ona ümid verən parlaq ulduzlara müraciət edərək onlardan daim yanmağı, heç vaxt sönməmələrini istəyir. Əgər sönsələr, dərd ortağını itirəcəyindən qorxan şair həmişə zillət içində yaşayıb ağ gün görməyən xalqını heç vaxt günəşi görməyən ulduzlarla eyni taleyi yaşadığına təəssüflənir.

---

[1] Dağcı C. Yansılar 3. İstanbul: Ötüken, 2012, 38 s.

Türk tarixinə böyük maraq göstərən Cengiz Dağcı tələbə ikən 1530-1783-cü illərdə Krım xanlığının mərkəzi olmuş Bağçasaray şəhərini gəzmək imkanı əldə edir. Şəhəri gəzərkən aldığı təəssüratlar nəticəsində yazdığı "Söyləyin, divarlar" (1940) şeiri bəzi misralarına görə çap olunmaqda problemlə rastlaşır. Məhsuldar şəkildə yaradıcılıqla məşğul olduğu bir dövrdə cəbhəyə getməli olan gənc Cengizin ön cəbhəyə göndərilməzdən əvvəl gətirildikləri hərbi qərargahda yazdığı "Qərargahda bahar" və "Veriniz atamın qılıncını mənə" (1941) adlı şeirləri onun coşğun ruhundan, sənətkarlıq istedadından xəbər verirdi.

Müharibənin ağır günlərindən sonra çox çətinliklə Londonda həyat mübarizəsi aparan yazıçı gün boyunca ağır işlərdə çalışsa da, gecələr ürəyindəkiləri sətirlərə köçürürdü. Londona gəldiyi ilk günlərdə doğma torpağından ayrı düşən Cengiz Dağcının vətən həsrətini ifadə edən "Krım, məni anarsanmı?" (1946) şeiri də bu dövrdə yazılan əsərlərdəndir.

Qeyd etmək lazımdır ki, yazıçının 1946-cı ildən sonrakı dövr yaradıcılığında poeziya nümunələrinə rast gəlinmir. Bu barədə ona ünvanlanan suala yazıçı belə cavab verir: "Bizim halkımızın tragediyası o kadar büyüktü ki olay şiirle anlatılamazdı. Şiir küçük, kısa bir şeydir. Onlar şiirlerde anlatılamaz, şiir bambaşka bir şeydir, başka bir uslüptur."[1]

Cengiz Dağcının zəngin yaradıcılığını diqqətlə izlədikdən sonra deyə bilərik ki, bu yaradıcılıqda hekayələr romanlarına nisbətən az yer tutsa da, bu əsərlərdə olan vətən, yurd, insan sevgisi, milli duyğuların bu və ya digər formada təzahür və tərənnümü yüksək bədiiliklə yazıçı idealının təsdiqinə çevrilir. O, Krımda yaşanılan tarixi gerçəklikləri, minlərlə Krım türkünün sürgündə yaşadıqlarını, vətənlərinə geri dönmək üçün apardıqları mübarizəni, müharibənin insan talelərinə gətirdiyi faciələri romanlarının olduğu kimi hekayələrinin də ana xəttinə çevirmişdir. Londonda yaşayan yazıçı 1961-80-cı illər ərzində Türkiyədə dərc olunan "Varlıq" jurnalı ilə sıx əməkdaşlıq edərək bir sıra hekayələr dərc etdirmişdir. Bu hekayələr həm mövzu-ideya, həm də sənətkarlıq baxımından yüksək dəyərə malikdir. Bu yarımfəsildə yazıçının 1974-80-cı illər ərzində "Varlıq" jurnalında "Halukun dəftərindən" başlığı altında çap etdirdiyi doqquz hekayə ("Sən Haluksan?", "Gözəlin doğumu", "Yıxılmış dünya", "Qara günlərdən...", "Qaç, Haluk, qaç!", "Bir az da qaç, Haluk!", "Həyat dediyimiz tapmaca

[1] Bellek-İnsan-Eser: Cengiz Dağcı. İstanbul: Ötüken, 2011, s.69

kimi bir şeydir", "Suların üstündə üzən səadət çələngləri", "Nəfəsimizlə kəsib paylaşdıq çörəyimizi", "Beşiyin içərisindəki kölgə") təhlilə cəlb edilmişdir. Qəhrəmanı Haluk olan bu silsilə hekayələr müxtəlif məzmuna malik olsalar da, yazıçı Halukun simasında öz ideallarını gerçəkləşdirmiş və onların həyata keçməsini arzulamışdır.

Adı çəkilən yarımfəsildə Cengiz Dağcının 1988-ci ildə çap olunmuş "Yansılar – 1" kitabının sonuna "Yurdunu itirən bir adamın vaxtsız əzabı", 1990-cı ildə çap olunmuş "Yansılar – 2" kitabının sonuna "Nəhayət, bizim ixtiyar savaşçı da Allahın rəhmətinə qovuşdu", 1991-ci ildə çap olunmuş "Yansılar – 3" kitabının sonuna isə "Qırx beş il boyunca Krımsız yaşadı deyə gözlərini həyata Krımın uzağında yumacağınımı zənn etdilər?" adlı başlıqlarla əlavə olunmuş üç hekayəsi də geniş təhlil edilmişdir. Müəllif Krımda yaşanılan tarixi-siyasi gerçəklikləri, Krım türklərinin müharibə dövründə yaşadıqlarını, 1944-cü ildə baş verən sürgünü, onların sürgündə yaşadıqları faciələri, doğma yurda dönmək üçün apardıqları mübarizəni hər üç hekayədə bədii şəkildə təsvir etməyə çalışmışdır. Yazıçı göstərməyə çalışır ki, bir millətin öz doğma torpağından sürgün olunması ona qarşı yönəldilən amansızlıqla yanaşı, yaşaya biləcəyi ən böyük faciədir. Təəssüf ki, bu böyük faciəni yaşamaq Krım türklərinin taleyinə yazılmışdır. Hər üç hekayədə yazıçı Krımdan çox uzaqda yaşayan türklərin doğma yurda dönmə mübarizəsi fonunda ictimai-siyasi rejimin sərt üzünü göstərməyə çalışmış, buna uğurla nail olmuşdur.

Cengiz Dağcının hekayə yaradıcılığında "Ana" və "Kiçik Alimcan" hekayələrinin özünəməxsus yeri vardır. "Röyalarda: Ana və Kiçik Alimcan" kitabında (2001) yer alan "Ana" hekayəsində yazıçının anasına müraciəti, Krımdan ayrıldığı vaxtdan əvvəlki dövrdə uşaqlıq və gənclik illərində yaşadıqları, vətənindən uzaq düşdüyü illərdə çəkdiyi həsrət və intizar, Qurzufta, Qızıldaşda yaşanan insan faciələri əsas yer tutur. Xəyalən anası ilə söhbət edən yazıçı birlikdə yaşadıqları illəri, özünü dünyanın ən bəxtəvər uşağı saydığı çağları həsrətlə xatırlayır, keçmişi ilə bu gününü müqayisə edir. Bu hekayədə real hadisələr təsvir edilmir, yaşanan hadisələrdən doğan hisslər dilə gətirilir. Yazıçı "bir Krım hekayəsi" adlandırdığı "Kiçik Alimcan" hekayəsində Krım türklərinin gündəlik həyatını, adət-ənələrini təsvir etməklə yanaşı, dövrün ictimai mənzərəsini də yaratmağa çalışır. Bildiyimiz kimi, bütün türk dünyasında sevilən

İsmayıl bəy Qaspiralı həyatı boyunca türk mənşəli xalqların milli kimliklərini itirməməsi, maariflənməsi yolunda canla-başla çalışmışdır. Onun və əqidə dostlarının gördükləri işlər nəticəsində XIX əsrdə Krımda məktəblərin açılması, dünyəvi təhsilə qiymət verilməsi, insanların düşüncələrində baş verən dəyişikliklər də hekayədə özünə yer tapır. Sadə və xalqın gündəlik danışıq üslubuna uyğun bir şəkildə yazılmış hekayənin milli koloritli dili onun oxunaqlılığını daha da artırmışdır.

Dissertasiyanın **"II Dünya müharibəsi və Cengiz Dağcının roman yaradıcılığı"** adlı II fəslinin **"C.Dağcının epik nəsrində tarixi-siyasi proseslərin milli-mənəvi ideallar kontekstində təcəssümü"** adlı birinci yarımfəslində tədqiqat əsas etibarilə dövrün tarixi-siyasi proseslərinin milli-mənəvi ideallar fonunda təcəssümü üzərində aparılır. Cengiz Dağcı demək olar ki, əksər əsərlərində doğma türk yurdu Krımın ruslar tərəfindən işğalına etiraz etmiş, yaradıcılığında problemi bu və ya digər səviyyələrdə səciyyələndirmişdir. "Qorxunc illər" (1956) romanı da məhz bu faciələrin təsvir olunduğu əsərlərdən biridir. Yazıçının Londonda ikən yazdığı və onun ilk romanı olan bu əsəri Türkiyəyə çap etdirmək üçün göndərdiyi zaman Yaşar Nabi Nayıra yazdığı sözlər bu faktı bir daha təsdiqləyir. "Elhamdüllillah Türk ve müslümanım. Bu anlattıklarımın hakikat olduğuna da yemin ederim."[1]

Romanda taleyinə kifayət qədər ağır faciələr yazılmış Krım türklərinin, o cümlədən yazıçının "millətimin övladları" adlandırdığı, milliyyətcə türk olan minlərlə insanın II Dünya müharibəsi illərində başına gətirilən müsibətlər, bu faciələr içərisində xalqının istiqlalına güclü inam hissi duyan insanların keşməkeşli taleyi öz əksini tapır.

Romanda Sadık Turan adlı krımlı bir gəncin başına gələnlər, onun bütün bunları Cengiz adlı bir gəncə yazdığı xatirələr və məktublar vasitəsilə nəql etməsi ilə aydın olur. Yaxınlarından, doğmalarından istəmədən ayrılan bu gənc çox çətin bir şəraitdə illərlə milli-mənəvi, dini cəhətdən hər cür təzyiqlərə məruz qaldıqları bir dövlət üçün müharibəyə getməli olur. Müharibənin gedişində almanlara əsir düşən Sadık Turan təsadüf nəticəsində sağ qalır. Əsir düşərgəsində ölümü, aclığı, işgəncələri, bir sözlə, dillə ifadə olunması mümkün olmayan dəhşətləri görən Sadık burada hər fürsətdə eyni qandan, eyni kökdən olan insanları axtarır.

[1] Hatıralarda Cengiz Dağcı. İstanbul: Ötüken, 1998, s.108

Əsərdə təkcə II Dünya Müharibəsi illərində baş verən hadisələr təsvir olunmur. Qeyd edək ki, roman boyunca Sadık Turan hələ Qızıldaş kəndində yaşadığı illərdə başlarına gələn müsibətləri xatırlayır. Rusların tez-tez kəndlərə soxularaq əhalini qorxutmaları, dövrün təhsil almış ziyalı şəxslərini heç bir səbəb göstərmədən həbs etmələri, məscidləri dağıtmaları hələ o zaman azyaşlı bir uşaq olan Sadık Turanın qəlbində silinməz izlər buraxmışdır. Artıq Sadık Turan hər şeyi daha yaxşı anlayır. Aparılan siyasətin türk mədəniyyətini, türk mənəviyyatını, türk dilini yer üzündən silməyə xidmət etdiyini dərk edir. Məlum olduğu kimi, Krım türkləri uzun illərdir ki, rusların əsarəti altında yaşamağa məcbur olmuşdur. Aparılan siyasət nəticəsində Krım türkləri çox ağır milli-mənəvi istismara, sürgünlərə, köçürülmələrə məruz qalmışlar. Siyasi quruluş tərəfindən sıxıldıqca milli mənlik hissləri daha da güclənən Krım türklərinin ümumiləşmiş obrazı Sadık Turandır. Türklüyünə, köklərinə, yurduna, xalqına, milli kimliyinə bu qədər sadiq olan bir şəxsin bu cür adlandırılması yazıçının uğuru kimi qiymətləndirilə bilər.

Əsərin qəhrəmanı Sadık Turanın nəql etdiyi hadisələr yazıçı tərəfindən "qorxunc illər" kimi adlandırılan 1940-46-cı illərdə cərəyan edir. Müharibəni qəlb yanğısı ilə xatırlayaraq xatirə dəftərinə sətir-sətir köçürən Sadık Turanın ruhundakı yaralar hələ uşaqlıq illərində şahidi olduğu hadisələrin qoyduğu sağalmaz izlərdir. Sadık Turan milliyyətçi bir gəncdir. Onun hələ kiçik yaşlarından dil, din, vətən, millət məsələlərində yaşıdlarından ciddi şəkildə fərqləndiyi aydın görünür. Məktəbdə aparılan bütün ideoloji təbliğatlara baxmarayaq Sadık atası Hüseyn ağadan illər boyu dinlədiyi qəhrəmanlıq dastanlarının – "Kuzu Korpeç", "Çora Batır" və "Siyer-i Nebi" kimi dini kitabların təsiri ilə böyümüşdür. O, hələ kiçik yaşlarından aparılan siyasətin zəngin ənənələrə malik türk mədəniyyətini, türk mənəviyyatını məhv etməyə yönəldiyini yaxın dostu Süleymandan fərqli olaraq açıqca duyur.

Bir məqamı da qeyd edək ki, romanda yazıçı müharibədə yalnız Krım türklərinin başına gələnləri təsvir etməklə kifayətlənməmiş, digər türk xalqlarından olan obrazlar da yaratmışdır. Məsələn, milliyyətcə azərbaycanlı, qırğız, qazax, özbək olan bu obrazlar II Dünya müharibəsinin yalnız Krım türklərinin deyil, bütün türk xalqlarının taleyində silinməz izlər, unudulmaz ağrı-acılar buraxdığını bir daha təsdiqləyir. İsa

Kocakaplanın sözləri ilə desək, "Türk okuyucusu, kendi kanından, kendi canından insanların İkinci Dünya Savaşı'nda pek çok sıkıntılar yaşadıklarını Cengiz Dağcı'dan öyrenmişti. Ne yazık ki, Cengiz Dağcı bu konuda hala tektir."[1]

Cengiz Dağcı "Qorxunc illər" romanı ilə doğulduğu torpaqlardan ayrı düşən, yad torpaqlarda özünə sığınacaq tapan, ancaq bütün varlığı ilə Krıma bağlı olan, vətəninə qayıdacağı günü həsrətlə gözləyən, "tarih sahnesine çıktığından beri kimseye zülmetmemiş, düşmanlarına kin beslememiş, ama buna rağmen hep sömürülmüş, tutsak edilmiş, ata yurtlarından sürülmüş bir milletin"[2], yəni Krım türklərinin və ümumiyyətlə Krımın faciəsini bütün dünyaya göstərməyə çalışmışdır.

II fəslin ikinci yarımfəsli **"C.Dağcının romanlarında türkçülük, millətçilik və azadlıq ideyalarının bədii inikası"** adlanır. Bu yarımfəsildə "yurdunu itirmiş, amma dilini, adətini, ümidini, idealını və inancını əsla itirməmiş"[3] yazıçının "Yurdunu itirən adam" (1957) və "Biz birlikdə keçdik bu yolu" (1996) adlı iki romanı təhlil obyektinə çevrilir. Hər iki romanda yazıçı minlərlə türk övladının II Dünya müharibəsi zamanı yaşadıqlarını, almanlara əsir düşməsini, əsirlikdə yaşanan işgəncə və zülmləri, əsir düşənlərin Stalin tərəfindən "vətən xaini" adlandırılmasını və bütün bu yaşananların fonunda ömrünün baharında sönən ümidləri, yaşadıqlarını bir ömür boyu qəlbində yük kimi daşıyanların taleyini qələmə almışdır.

"Yurdunu itirən adam" romanının qəhrəmanı Sadık Turan vətəninin azadlığı naminə Türkistan legionunda vuruşur, bütün varlığı ilə Krımın istiqlalını görəcəyi günün yaxın olduğuna inanır. Müvəqqəti icazə ilə bir neçə günlük Krıma gələn Sadık Turanın yol boyunca düşüncələri vasitəsilə yazıçı oxucunun gözləri qarşısında yaxın 170 ilin tarix mənzərəsini yaradır. Sadık Turan xəyala dalır, ata-babalarından qalan hər şeyi Yaltada kilsə tikmək bəhanəsilə "Krımın malı, tatarın malı, hökumətin malıdır" deyə əlindən alınan insanların taleyi, işləməkdən beli bükülmüş qocaların qamçı vurula-vurula evindən, ocağından qovulması, gənc qızların qulağındakı

---

[1] Kocakaplan İ. Kırım'ın ebedi sesi Cengiz Dağcı. İstanbul: Türk edebiyatı vakfı yayınları, 2012, s.74
[2] Çonoğlu S. Vatanını yüreğinde taşıyan yazar: Cengiz Dağcı // Kardeş kalemler dergisi, kasım 2011, №59, s.32
[3] Abdin T. Oralarda kim var: Cengiz Dağcı. "525-ci qəzet", 22 oktyabr 2011, №194, s.7

sırğanın belə "dövlət xəzinəsinin malıdır" deyərək qoparılması kino lenti kimi onun gözlərinin önündən keçir. Yazıçı bunlar vasitəsilə diqqəti xalqının yaşadığı çətinliklərə çəkməyə çalışır. Ancaq tarixi-siyasi proseslərin gedişi ilə Sadık Turanın bir türk övladı kimi xalqının xoşbəxtliyi naminə çəkdiyi çətinliklər heç bir fayda vermir. O, uğrunda canından belə keçməyə hazır olduğu vətənindən uzaq düşür.

"Biz birlikdə keçdik bu yolu" romanında da yazıçı minlərlə türk övladının II Dünya müharibəsi zamanı yaşadıqlarını, almanlara əsir düşməsini, əsirlikdə yaşanan işgəncə və zülmləri, əsir düşənlərin Stalin tərəfindən "vətən xaini" adlandırılmasını və bütün bu yaşananların fonunda ömrünün baharında sönən ümidləri, yaşadıqlarını bir ömür boyu qəlbində yük kimi daşıyanların taleyini qələmə almışdır. Bu taleyi yaşayanlardan biri də romanın qəhrəmanı İzmail Tavlıdır. Yazıçı öz taleyi ilə romanın qəhrəmanı İzmail Tavlının taleyi arasında nə dərəcədə oxşarlıq olması barədə xatirələrində yazır: "Biz Beraber Geçtik Bu Yolu'nun İzmail Tavlı'sı da Bug nehrinin kıyısından Kirovograd kampına kadar geçer benzeri bir yolu. Onun geçmiş olduğu yolu ben geçmedim. Fakat Kirovograd-Uman yolunun, sonra da tanığı olduğum Uman esirler kampının bilenmiş gerçeğiyle yazdım İzmail Tavlı'nın tragediyasını."[1]

Kirovoqrad əsir düşərgəsində üç ay qalan İzmail burada yaşadıqlarını xalasına göndərdiyi məktublarda dilə gətirir. Üç ayın üç əsrə bərabər olduğunu, hər gün əsirlərə verilən daşlı, samanlı, kərpic kimi sərt 50 qram çörəyin, nədən hazırlandığı belə bilinməyən şorbanın onlar üçün dünyada ən gözəl yemək dəyərində olduğunu söyləyirdi. Hələ əsirlərə yemək verilməsi səhnəsinin dəhşəti, bir tikə çörəkdən ötrü bir-birini itələyən insanların üzlərindəki qorxunc ifadə, sıranı pozanları dəyənəklə vuran alman nəzarətçilərinin istehzalı gülüşü, şorbanı tökmək üçün saxladıqları konserv qutusunu yatanda belə əllərindən buraxmamaları, alman əsgərlərinin çəkib tulladıqları siqaret kötüklərini yerdən tapan əsirlərin sevincdən gülən üzü uzun illər keçsə də, İzmailin hafizəsindən silinməmişdi. Bunların bir çoxu yazıçının özünün şəxsən yaşadıqları faktlardır. Özünün də qeyd etdiyi kimi, onun taleyi ilə oxşar taleyi yaşamış insanların həyatını sətirlərə köçürərkən yazıçının əsas məqsədi uzaq məsafələrin ayırdığı oxuyucuların hər birinin yaşından asılı olmayaraq

---

[1] Hatıralarda Cengiz Dağcı. İstanbul: Ötüken, 1998, s.109

romanı oxuyarkən öz həyatından nüanslar tapması olmuşdur. Romanların təhlili zamanı tarixi-siyasi proseslərin gedişi nəticəsində vətənindən uzaq düşmüş Krım türklərinin çağdaş mərhələdəki ağır həyat tərzləri ilə yanaşı, onların milli qürur və gələcək arzularının əksi məsələlərinə də xüsusi diqqət ayrılmışdır.

Dissertasiyanın III fəsli **"Cengiz Dağcının romanlarında türk milli-mənəvi ideallarının təzahürü"** adlanır.

Tarixdən məlum olduğu kimi, 1920-ci ilin noyabrında Krımda Sovet hökuməti qurulmuş, 18 oktyabr 1921-ci ildə Sovet hökuməti tərəfindən Krım Muxtar Respublikası elan olunmuşdu. Bundan sonra qismən də olsa Krım türkləri nisbi milli hüquqlara malik oldular. 1921-29-cu illərdə Yeni İqtisadi Siyasətin tətbiqi ilə Krım türklərinin sosial-iqtisadi həyatında müsbət dəyişikliklər oldu. Yeni İqtisadi Siyasətə son qoyulmasından dərhal sonra tətbiq edilən kolxozlaşdırma siyasəti Krım türklərinə çox baha başa gəldi. Bu illərdə Krım türklərinin yaşadıqları çətinliklər, qadağalar, sürgünlər, tətbiq edilən siyasətə etiraz edənlərin faciəli taleyi müasir türk ədəbiyyatının görkəmli nümayəndəsi Cengiz Dağcının "Onlar da insan idi" romanında öz geniş bədii əksini tapır. Məhz bu problemlərin tədqiqinə həsr edilmiş dissertasiyanın II fəslinin "**Türkün yurd itkisinin milli faciə tipində təqdimi və milli özünüdərk problemi"** adlanan birinci yarımfəslində "O torpaqlar bizim idi" romanı geniş təhlilə cəlb edilir. Xatirələrində "Bu milletin ölümüne rahmet olsun diyip geçmek faciayı unutmak; fazlası, benzeri faciaların ilerde tekrarlanma olanağını akıllardan silip atmak olurdu. Bu yüzdendir belki, ben yalnızca Kırım'ın yazarı değilim. Ama Kırım'ın faciasını bütün gerçeği ve içtenliğiyle yalnız ben yazabilirdim"[1] deyən yazıçının bu fikri həm yaşanan faciələrin ağırlığını, həm də yazıçının bu faciələri yazmaq haqqını təsdiqləyir.

Təhlil prosesində romanla bağlı fikir söylənilərkən göstərilir ki, yazıçı əsər boyunca bir neçə əsrdir davam edən Krım türklərinə qarşı edilən rus zülmünü nəzərə çatdırmağa çalışır. Bütün varlığı ilə sevdiyi, ata-babalarından qalan doğma torpağa sonsuz məhəbbət, milli-mənəvi dəyərlərə bağlılıq, milli birlik ideyası, rusların Krım türklərinə qarşı apardıqları siyasətin ağır nəticələri Cengiz Dağcının bir çox romanlarının

[1] Hatıralarda Cengiz Dağcı. İstanbul: Ötüken, 1998, s.250

olduğu kimi "Onlar da insan idi" əsərinin də əsas mövzu və ideya istiqamətini təşkil edir.

Bu yarımfəsildə "O torpaqlar bizim idi" (1966) romanında totalitar rejim məngənəsində sıxışdırılan Krım türklərinin yaşadıqları faciələr və bütün yaşananlara baxmayaraq onların milli kimliklərini qoruyub saxlamaq uğrunda apardıqları mübarizə də diqqət mərkəzində saxlanılır. Bu romanda yazıçı 1935-1945-ci illər arasında Krım türklərinin yaşadığı faciələri özünün də şahidi olduğu gerçək hadisələrə əsaslanaraq qələmə almışdır. Romanda hadisələr, əsasən, bir kənddə baş versə də, müəllifin məqsədi yaşanan faciələri ümumiləşdirmək olmuşdur. Adı çəkilən kənd ümumilikdə Krım torpağının simvolu kimi təqdim olunur. Romanın torpaqdan bəhs edən sətirlərində yazıçının vətən həsrəti, vətən nisgili aydın sezilir. Yazıçı kənddə yaşayan, torpağı əkib-becərən insanların simasında bütün varlığı ilə torpağına bağlı olan Krım türklərinin vətən sevgisinin möhkəmliyini göstərməyə çalışmışdır. "Cengiz Dağcı'nın kahramanları ata torpağına bağlılığın hangi anlama geldiğini ve toprağa neden bağlanmamız gerektiğine sık-sık vurğu yaparlar. Onlar "onun için" ve "onun kucağında" ölmeyi asla reddetmezler. Kırım topraklarında tattıkları, teneffüs ettikleri özgürlük, başka topraklarda tadılan özgürlükle aynı değildir, aynı tadı vermez. Bu tadı verecek olan, delicesine bir tutkuyla bağlandığımız, yokluğu yerine ölümü tercih ettiğimiz ve doğduğumuz yer olan vatan topraklarıdır."[1]

Ürək yanğısı ilə yazılmış "O torpaqlar bizim idi" romanı dünya ictimaiyyətinin o qədər də həssas yanaşmadığı Krım türklərinin faciəli taleyinə diqqət çəkir. Yazıçının dəqiq müşahidələri, başına gələn real hadisələrin bədii əsərdə birbaşa və dolayı yolla əks etdirilməsi romanın bədii təsir gücünü daha da artırır. Cengiz Dağcı özü xatirələrində bunu belə dilə gətirmişdir: "O topraklar bizimdi" çok ağır şartlar içinde yazıldı. Ne ki, yalnızca duyarlığa dayanarak yaratılmış bir roman olmadı. Her sayfası demeyeyim; romanın hemen hemen her bölümü gerçek olaylar üzerine kuruldu. …Köy hayatı ve toprak sevgisinden başlayarak, gitgide savaşlara ve ölüme uzanan zincirin her halkasında yaşamın ve yaşamanın sıcacık

[1] Çonoğlu S. Cengiz Dağcı'nın romanlarında ata mirası toprağa bağlılık // Karadeniz dergisi, 07 haziran, 2012, №13, S.21

soluğu var. Roman, bir bakıma, 1937-1945 yılları arasında Kırım'ın ve Kırım-tatarlarının tarihi aynasıdır da."[1]

Bu əsərdə C.Dağcı milli məsələyə həssaslıqla yanaşaraq oxucu diqqətini problemə tam mənada yönəldə bilmişdir. Müəllif bir kəndin timsalında bütöv bir millətin faciəli taleyini göstərə bilir. Lakin yazıçı faciələri təsvir edərkən diqqəti daha çox milli özünüdərk problemlərinə yönəltməyi bacarır. Yazıçı unutqanlığı millət üçün daha böyük fəlakət hesab etdiyindən millətin tarixini, adət-ənənələrini, istiqlal düşüncələrini və s. özünüdərk kontekstində canlandırmaqla millətin yaşamaq və mübarizə aparmaq ruhunu artırmağa çalışır. "O torpaqlar bizim idi" romanında problemin bu şəkildə qoyuluşu yazıçının müəyyənləşdirdiyi milli konsepsiyaya xidmət göstərir.

**"Krım türklərinin faciəli taleyinin bədii əksi"** adlı ikinci yarımfəsildə yazıçının tarixi-siyasi proseslərin gedişi nəticəsində torpağından uzaqlarda yaşamalı olan Krım türklərinin acı taleyinin təsvir olunduğu "Badam budağına asılı körpələr", "Üşüyən küçə", "Yoldaşlar", "Dönüş", "Mənim kimi biri", "Anama məktublar", "Ölüm və qorxu günləri" romanları tədqiqata cəlb edilmişdir. Məlum olduğu kimi, Krım türklərinin yaşadığı faciələri, ağrı-acıları, doğma torpaqlarından sürgün olunmalarını yaradıcılığının ana xəttinə çevirən Cengiz Dağcı bütün əsərlərində özünün və mənsub olduğu millətin vətən həsrətini, XX əsrdə ağır faciələrlə üzləşən Krım türklərinin dərdini qələmə almışdır. Londonda yaşadığı 65 il boyunca ən rahat anlarında belə qürbətdə olduğunu unutmayan, o torpaqlara qayıtmaq ümidini heç bir zaman itirməyən yazıçı Krım türklərinin ağrılı taleyini ürək yanğısı ilə dilə gətirmiş, yazdığı romanlar vasitəsilə doğma yurdundan pərən-pərən olmuş soydaşlarının yaşadıqları talelərə diqqət çəkməyə çalışmışdır. Bu baxımdan adı çəkilən romanların təhlili zamanı Krım türklərinin faciəli talelərinin bədii əksi təhlil predmetinə çevrilmişdir.

**III fəslin "Türklərin tarixi qəhrəmanlığının bədii tərənnümü"** adlı üçüncü yarımfəslində Cengiz Dağcının türk tarixi gerçəkliklərinin uğurlu bədii təqdimatı ilə seçilən "Gənc Temuçin" (1969) romanı tədqiqat obyektinə çevrilmişdir. Bu əsər yazıçının digər romanları kimi ədəbi tənqidin diqqətini bir o qədər cəlb etməsə də, əsərin yazıçının ciddi tarixi

[1] Hatıralarda Cengiz Dağcı. İstanbul: Ötüken, 1998, s.251

axtarışlarının nəticəsi kimi meydana gəldiyini mütləq qeyd etməliyik. Hələ Ağməscid Pedaqoji Universitetinin tarix fakültəsində oxuyarkən saatlarla kitabxanada tarix kitablarını mütaliə edən gənc yazıçı xatirələrində o zamanlar Krım tarixi ilə bağlı həqiqətlərin düzgün əks olunduğu heç bir vəsaitin olmadığını, ancaq Kruçevskinin "Rusiyanın orta əsr tarixi" kitabının "Monqol-tatar istilası və Qızıl Orda dövləti" adlı hissələrini xüsusi maraqla oxuduğunu qeyd edir. "Rusların bir millet olması ve gelişmesinde, önce Moğolların Batı'ya akınları, ardından Tatar hakimiyyeti başlıca rol oynadı. Moğol ve Altın Ordu tarihleri öğrenilmeden Rusya'nın tarihi ve bu tarihten kaynaklanan Rus karakteri, öğrenilemezdi."[1] Bu baxımdan yazıçı tarixi mövzunu adı çəkilən ədəbi əsərin materialına çevirmişdir. Təbii ki, bu zaman Cengiz Dağcı bəzi məqamlarda sərbəstliyə yol verərək tarixi materiala müəyyən qədər müdaxilə etmişdir.

Yazıçının əksər əsərlərində tarixi proseslərin bu və ya digər şəkildə qəhrəmanların taleyinə təsiri məsələləri ön plana çıxarılır. Ancaq "Gənc Temuçin" romanında birbaşa tarixi həqiqətlərə əsaslanılmışdır. Romanın giriş hissəsində yazıçı 1155-ci ildə, yəni Çingiz xanın doğumundan 50 il öncə Böyük Çin səddinin şimal hissəsində yerləşmiş, Çin imperatorluğu ilə düşmən münasibətdə olan Monqol, Onqut, Tatar, Merkit, Nayman adlı qəbilələr arasındakı çəkişmələrdən bəhs olunur. Romanda əsl adı Temuçin olan Çingiz xanın dünyaya gəlməsi, gəncliyi, evlənməsi və həyatının Böyük Monqol imperiyasını qurana qədər olan dövrü təsvir olunur.

Romanda bədiilik və tarixilik kontekstində məkanların təsviri, obrazların tarixi aspektdə təqdimi, türk qəbilələrinin həyat tərzi, adət-ənənələri, dini inancları, məişət tərzi haqqında verilən məlumatlar yazıçının adı çəkilən dövrlə bağlı tarixi məlumatları yaxşı mənimsədiyini sübut edir. Ancaq yazıçı tarixi materialı quru şəkildə deyil, daxili monoloqlar, həyəcanlı dialoqlarla zənginləşdirilmiş şəkildə təqdim edir.

Dissertasiyanın "**Nəticə"** hissəsində əldə olunan bütün qənaətlər ümumiləşdirilərək qeyd olunur ki, Cengiz Dağcının bütün romanlarında və hekayələrində tarixi-siyasi proseslər milli-mənəvi ideallar kontekstində təqdim olunmuş, milli özünüdərk məsələləri, türkçülük, millətçilik və azadlıq ideyaları irəli sürülmüş, Krım türklərinin faciəli talelərinin bədii əksi özünə yer almış, vətən, yurd, insan sevgisi, milli duyğuların bədii

[1] Hatıralarda Cengiz Dağcı. İstanbul: Ötüken, 1998, s.60

tərənnümü yüksək sənət prinsipləri daxilində ifadə olunmuşdur.

**Dissertasiyanın əsas elmi-nəzəri müddəaları aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:**

1. Cengiz Dağcının "Yurdunu itirən adam" romanında türkçülük, millətçilik və azadlıq mübarizəsi // Gənc alimlərin əsərləri, Bakı: 2013, №7, s.354-360
2. Cengiz Dağcı yaradıcılığının tədqiqinin Azərbaycan ədəbiyyatşünaslığı üçün əhəmiyyəti / Müasir şəraitdə Azərbaycan tarixi, dili, ədəbiyyatı və fəlsəfəsi qarşısında duran yeni vəzifələr adlı Gənc alimlərin respublika elmi konfransının materialları. Bakı: 2013, s.94-95
3. Cengiz Dağcının "Onlar da insandı" romanında türkün yurd itkisinin milli faciə tipində təqdimi // Filologiya məsələləri, AMEA, M.Füzuli adına Əlyazmaları İnstitutu. Bakı: 2013, №5, s.330-337
4. Cengiz Dağcı romanlarının qəhrəmanı Sadık Turan Krım türklərinin ümumiləşmiş obrazı kimi / Miras təşkilatı, Qafqaz Universiteti və Selçuk Universitetinin birgə təşkil etdiyi VII. Uluslararası türk kültürü, sanatı ve kültürel mirası koruma sempozyumunun materialları. Bakı: 2013, s.669-675
5. Cengiz Dağcının "Badam budağına asılı körpələr" romanında Krım türklərinin faciəli taleyinin bədii əksi // Axtarışlar, AMEA-nın Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Naxçıvan: 2014, №1, s.79-84
6. Cengiz Dağcının "O torpaqlar bizim idi" romanında tarixi-siyasi proseslərin fonunda milli özünüdərk məsələsi // Şərq filologiyası məsələləri, AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, VIII buraxılış. Bakı: Zərdabi, 2014, s.246-257
7. İsmayıl bey Gaspiralı'nın "Dilde, Fikirde, İşte Birlik" düşüncesinin Cengiz Dağcı eserlerinde tezahürleri / Gaspiralı İsmail bey'in ölümünün 100. yılında "Dilde, fikirde, işte birlikte neredeyiz?" adlı beynəlxalq konfransın tezisləri. İstanbul: İstanbul Universiteti, 2014, s.49-50
8. Cengiz Dağcı romanlarının mövzu və ideya istiqamətləri / I Uluslararası Türk Dünyası Araştırmaları sempozyumunun bildiriler kitabı. Niğde: 2014, s.511-522

9. Повести Ченгиза Дагчы олицетворение национальных чувств и идей патриотизма / Гилея науковый вестник. Национальный Педагогический Университет имени М.П.Драгоманова и Украинская Академия Наук. Киев: 2014, выпуск 86 (№7), стр.240-243

10. Cengiz Dağcının "Üşüyən küçə" romanında dövrün tarixi-siyasi mənzərəsi fonunda insanın psixoloji sarsıntılarının təzahürü // Miras İctimai Birliyi, Uluslararası Saraybosna Universiteti və Selçuk Universitetinin birgə təşkil etdiyi II.Uluslararası türk sanatları, tarihi ve folkloru konfransının materialları. Bosniya: 2014, s.521-525

11. Cengiz Dağcının "Qorxunc illər" romanında tarixi-siyasi proseslərin milli-mənəvi ideallar kontekstində təcəssümü // Türk dünyası incelemeleri. İzmir: Ege Universiteti, 2014, cild 14, №2, s.47-56

12. Cengiz Dağcının hekayələrində yurd nisgilinin bədii təzahürü // Filologiya məsələləri, AMEA, M.Füzuli adına Əlyazmaları İnstitutu. Bakı: 2015, №2, s.301-308

13. Cengiz Dağcının "Gənc Temuçin" romanında türk tarixi həqiqətlərinin bədii tərənnümü // Axtarışlar, AMEA-nın Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Naxçıvan: 2015, №1, s.57-63

14. Sürgün olunmuş Krım türklərinin doğma yurda dönmə mübarizəsinin Cengiz Dağcı yaradıcılığında əksi // Turan-SAM, Kars: Kafkaz Üniversitesi, 2015, cilt 7, №25, s.3-10

15. Cengiz Dağcının "Biz bərabər keçdik bu yolu" romanında avtobioqrafik məqamlar / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92 illiyinə həsr olunmuş Gənc tədqiqatçıların III beynəlxalq elmi konfransının materialları. Bakı: Qafqaz Universiteti, 2015, s.1147-1148

16. Cengiz Dağcı yaradıcılığında dil milli kimliyin əsas göstəricisi kimi / XXI əsrin pəncərəsindən mədəniyyət və kimlik adlı beynəlxalq konfransın materialları. Bakı: Xəzər Universiteti, 2014 (çap prosesində)

17. Cengiz Dağcının həyatı, dövrünün ictimai-siyasi mənzərəsi və ədəbi mühiti // Pedaqoji Universitet Xəbərləri, Bakı: ADPU, 2015, №2 (çap prosesində)

***A.S.Abbasova***

## THE EMBODIMENT OF THE HISTORICAL-POLITICAL PROCESSES IN CENGIZ DAGCI'S WORKS

### Summary

Cengiz Dagci who notable representative of the literature of Crimean Tatars of the XX century as the writer-nationalist had an unprecedented role in delivery to the world community about tragedies of the Crimean Turkishs. Cengiz Dagci was demonstrate the love for motherland, land, loyalty and attachment to Turkish language and national traditions in his all novels and stories. The writer's rich creativity is significant to these problems from point of view in approach in the context of national-morality ideals. The systematic research work was unwrittened about the powerful writer's work in Azerbaijan literature and including oriental studies.

In the thesis were investigated systematically the life and creativity of Cengiz Dagci who is the most notable representative of Crimean Turkish literature in the XX century.

The thesis are consists of preface, three chapters and the list of used literature and books.

The first chapter of the thesis have been named "Cengiz Dagci's life, his time, his environment, the stages of his literical-artistic activities and his story creativity". In this chapter were investigated at length the writer's life, his time, environment, the stages of literical activities, the problems of the influence of social-political processes to formation of his world outlook.

The second chapter of the thesis have been named "The World War II and Cengiz Dagci's novel creativity".

The investigator draw into analizing of the novels "Terrible years", "A person who lost his homeland" and "We cross together this road" in which were reflected the tragedic lifes of Crimean Turkishs which direcred to the new direction by the beginning of the World War II.

The third chapter of the thesis have been named "The appearance of Turkish national-morality ideals in Cengiz Dagci's novels". In this chapter the writer's numerous novels were involved for the investigation in the context of the national-morality ideals and Turkish national self-consciousness and self-affirmation.

At the end are given the getting scientific results and the list of the used literature.

*А.Ш.Аббасова*

## ВОПЛОЩЕНИЕ ИСТОРИКО-ПОЛИТИЧЕСКИХ ПРОЦЕССОВ В ТВОРЧЕСТВЕ ЧЕНГИЗА ДАГЧЫ

### Резюме

Видный деятель Крымско-татарской литературы XX века национальный писатель Ченгиз Дагчы сыграл незаменимую роль в донесении до мировой общественности трагедии Крымских тюрков. Во всех романах и рассказах Ченгиза Дагчы показана любовь и преданность к Родине, к земле, преданность к тюркскому языку, к обычаям и традициям. В обогащённом творчестве писателя важное место занимает контекст национально-духовных идей и подход к этим вопросам. В Азербайджанском литературоведении, в том числе и в востоковедении, не проведено системное расследование и не написано ни одной исследовательской работы о творчестве великого писателя Ченгиза Дагчы. В диссертации впервые в Азербайджанском литературоведении ведется системное расследование жизни и творчества самого видного представителя Крымско-татарской литературы XX века Ченгиза Дагчы. Диссертация состоит из введения, трёх глав, разделенных на определенные разделы, заключения и списка использованной литературы.

В главе диссертации «Жизнь Ченгиза Дагчы, период, среда, ступени художественно-литературной деятельности и создание рассказов» подробно исследуется жизнь писателя, ступени литературно-художественной деятельности, среда и обстановка, воздействующие на творчество писателя, влияние общественно-политических процессов на формирование его мировоззрения.

Во II главе диссертации «II Мировая война и создание романов Ченгиза Дагчы» исследователь провел анализ романов «Страшные годы», «Человек, потерявший Родину», «Мы вместе прошли этот путь», в которых отражается трагическая жизнь Крымских тюрков, судьба которых изменилась в связи с началом II Мировой войны.

В III главе под названием «Национально-духовные идеи тюрков в романах Ченгиза Дагчы» были привлечены к исследованию многочисленные романы в контексте национально-духовных идей, тюркского национального самопознания и самоутверждения.

В конце диссертации указаны заключения и список использованной литературы.

AMEA-nın mətbəəsində çap olunmuşdur
Tiraj 100

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ВОСТОКОВЕДЕНИЯ им. акад.З.М.БУНИЯТОВА**

*На правах рукописи*

**АЙТЕН ШАХИД гызы АББАСОВА**

# ВОПЛОЩЕНИЕ ИСТОРИКО-ПОЛИТИЧЕСКИХ ПРОЦЕССОВ В ТВОРЧЕСТВЕ ЧЕНГИЗА ДАГЧЫ

**5717.01 – Литература тюркских народов**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по филологии

**БАКУ – 2016**